# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# SƏRƏNCAM

**“Ərzaqlıq buğdanın dövlət tədarük qiymətinin müəyyən edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 29 iyun tarixli 351s nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq:

1. “Ərzaqlıq buğdanın dövlət tədarük qiymətinin müəyyən edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 29 iyun tarixli 351s nömrəli Sərəncamında aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1-ci hissədə “Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 7 iyul tarixli 105 nömrəli Qərarı ilə təsdiq edilmiş “Dövlət Taxıl Fondunun saxlanması və istifadəsi Qaydaları”nın 1 nömrəli” sözləri “bu Sərəncamın” sözləri ilə əvəz edilsin;

1.2. həmin Sərəncama “Tədarük olunan, saxlanan və buraxılan ərzaqlıq buğda üçün tələblər” adlı əlavə daxil edilsin (əlavə olunur).

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, “ 25 ” “ oktyabr ” 2024-cü il

№ 547s